# Fövqəladə hallar naziri Kəmaləddin Heydərov Qəbələ şəhərində vətəndaşları qəbul etmişdir



24 avqust 2018-ci il tarixində Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Heydərov Qəbələ şəhərində İsmayıllı, Şamaxı, Ağsu, Qobustan və Qəbələ rayonlarının sakinlərinin, həmçinin həmin rayonlarda məskunlaşmış məcburi köçkünlərin qəbulunu keçirmişdir. Fövqəladə hallar naziri tərəfindən qəbul edilən 15 vətəndaşın müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapmış, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilmişdir. Bundan başqa, kadr məsələləri ilə bağlı 42, digər məsələlərlə bağlı müraciət etmiş 28 vətəndaş nazir müavinləri və nazirliyin müvafiq baş idarə və qurum rəhbərliyi tərəfindən qəbul olunmuşdur.

# Müstəqillik yolunda mühüm addım

30 avqust 1991-ci ildə Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyasında respublikanın dövlət müstəqilliyinin bərpası haqqında Deklarasiya qəbul edilib. Eyni vaxtda "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Soveti qərar çıxarıb. 1991-ci il oktyabrın 18-də Ali Sovet bu qərarın icrası məqsədilə 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının qəbul etdiyi müstəqillik haqqında Deklarasiyaya əsaslanaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Deklarasiyasını rəhbər tutaraq Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını və müstəqil ölkəmizin dövlət, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edib.




# Yemişanlı kəndində görüş-qəbul keçirilib

Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayevin növbəti görüş qəbulu avqustun 29-da Yemişanlı kəndində keçirilmişdir. Görüşdə rayonun hüquq mühafizə orqanlarının, əlaqədar xidmət, təhsil mədəni-maarif təşkilatlarının rəhbərləri iştirak etmişlər.

Görüş iştirakçılarını salamlayan icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən geniş quruculuq işləri, iqtisadi və sosial sahələrin sürətli inkişafını təmin edən genişmiqyaslı layihələr barədə ətraflı məlumat vermişdir.

İcra hakimiyyətinin başçısı bildirmişdir ki, Azərbaycanda gedən sürətli inkişafın bariz nümunəsini bu gün nəinki Qəbələ şəhərində, hətta rayonumuzun qəsəbə və kəndlərində də görmək mümkündür. Qəbələnin şöhrəti artıq ölkəmizin hüdudlarından çox-çox uzaqlarda da yayılmışdır. Bu gün sizin yaşadığınız Yemişanlı kəndinə geniş müasir asfalt yol çəkilir. Yol isə bütün sahələrin inkişafı üçün əsas stimuldur.

Rayon icra hakimiyyətinin başçısı qeyd etmişdir ki, rayon rəhbərliyinin yerlərdə əhali ilə görüşləri ənənə halını almışdır. Məqsəd odur ki, yerlərdəki vəziyyəti, əhalini narahat edən problem varsa onları öyrənək, vətəndaşların arzu və təkliflərini yerində dinləyək, problemlərin həllinə kömək göstərək.

Sonra görüş-qəbulda iştirak edən kənd sakinləri dinlənilmişdir.

Çıxış edənlər ölkədə və rayonda, o cümlədən Yemişanlı kəndində həyata keçirilən abadlıq, quruculuq işlərinə görə ölkə Prezidentinə, rayon rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

Görüşdə çıxış edən kənd sakinlərindən Cəmərd Salehov, Ayaz Məmmədşərifov, Zamir Ağasiyev, Eldar Baxşıyev və başqaları kənddə elektrik xətlərinin təmirinə, əlavə subartezian quyusunun qazılmasına, kəndin suvarma suyu ilə təminatının yaxşılaşmasına və qazlaşmaya kömək göstərilməsini xahiş etmişlər.





Qaldırılan məsələlərin bir çoxu yerindəcə həll olunmuş, vaxt tələb edən məsələlərlə əlaqədar aidiyyatı təşkilat rəhbərlərinə göstəriş verilmişdir.

Sonra rayon icra hakimiyyətinin başçısı səhiyyə, təhsil, yol tikintisi, enerji və su təchizatı təşkilatlarının rəhbərlərinin bu sahələr üzrə kənddə görülən işlərə dair məlumatlarını dinləmiş, görüləsi işlərin daha da sürətləndirilməsi və yaxşılaşdırılması üçün tədbirlər müəyyənləşdirilmişdir.

**"Qəbələ"**

**İlkin Vəlizadə (foto).**

# Ölkə mətbuatı Qəbələdə turizmin inkişafından yazır

***Rayonumuzda turizm sektoru inkişaf edir, beynəlxalq səviyyəli turizm mərkəzinə çevrilir. Ölkə və dünya mətbuatında Qəbələdə turizmin inkişafı sahəsində əldə olunan nailiyyətlərdən bəhs edən yazıların sayı da gündən-günə artır.***

***Azərbaycan qəzetinin 15 avqust 2018-ci il sayında bu orqanın əməkdaşı Rəhman Salmanlının "Azərbaycana bir gələn bir də gəlmək istəyir" başlıqlı məqaləsi dərc olunmuşdur. Həmin məqalədə Qəbələdə turizmin inkişafı sahəsində görülən işlərdən geniş bəhs olunur. Oxucularımızın marağına səbəb ola biləcəyini düşünərək məqalənin Qəbələ ilə əlaqəli hissəsini dərc edirik:***

«Başqa bir beynəlxalq səviyyəli turizm mərkəzi - "Tufan" Dağ-Xizək, Yay-Qış İstirahət Kompleksi isə Qəbələ rayonundadır. Kompleksin birinci mərhələsinin açılışı dörd il bundan öncə (2014-cü il, yanvar) dövlət başçısının iştirakı ilə reallaşdırılıb. Bu möhtəşəm istirahət məkanı ilin bütün fəsillərində turistlərə kanat gəzintisinə, qış mövsümündə xizəklə sürüşməyə, xizəkçilik məktəbi, hotel və digər xidmətlərdən istifadə etməyə imkan verir.



Respublikamızın dilbər guşələrindən olan Qəbələnin beynəlxalq səviyyəli turizm mərkəzinə çevrilməsi istiqamətində məqsədyönlü işlər aparılır. Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransındakı nitqində Qəbələdə turizm sektorunun inkişafı istiqamətində son illər həyata keçirilən layihələrdən məmnunluğunu ifadə edərək demişdir: "Qəbələ Bakıdan sonra ölkəmizin ikinci turizm mərkəzidir və beynəlxalq turizm mərkəzinə çevrilir".

Hazırda Qəbələdə irili-xırdalı 100-ə yaxın turizm obyektində gün ərzində 4500 qonağı qarşılamaq, onlara yüksək səviyyədə yemək və hotel xidməti göstərmək mümkündür. İstirahət mərkəzlərində qonaqlara müasir hotel xidmətləri ilə yanaşı, Azərbaycan və Avropanın ləziz yeməkləri təklif olunur. Qonaqlar üçün kanatla dağ gəzintisi, güllə atıcılığı, meşə gəzintisi, atla gəzinti, balıq ovu, qayıqla göldə üzmək, rayonun görməli yerlərinə və tarixi abidələrinə səyahətlər təşkil edilir. Qəbələyə ailəvi gələn və bir neçə gün rayonda dincəlmək istəyən turistlər əsasən meşə və çay kənarındakı kotteclərdə və kirayə verilən yüksək şəraitə malik kənd evlərində istirahət etməyə üstünlük verirlər. Rayonun dağlıq və meşəlik ərazilərində yerləşən Vəndam və Bum qəsəbələrindəki, Nohurqışlaq, Duruca, Qəmərvan, Bunud və Həmzəli kəndlərindəki evlərin təxminən yarısı kirayə verilir ki, bu da yerli əhalinin dolanışıq şəraitinin yaxşılaşmasına səbəb olur».